Kamil Fikrət oğlu Adışirinov

# BÖYÜK VƏTƏN MÜHARIBƏSİ İLLƏRİNDƏ ŞƏKİDƏ ƏDƏBİ-MƏDƏNİ MÜHIT

Böyük Vətən müharibəsi ərəfəsində Şəkidə teatr iflic vəziyyətinə düşmüşdü. Elə bu xüsusdan idi ki, Azərbaycan İncəsənət İdarəsi işçilərinin 15 dekabr 1940-cı il tarixli iclası Nuxa teatrının fəaliyyətində olan müvəffəqiyyətlərlə yanaşı, nöqsanları da üzə çıxartdı. Müşavirədə çıxış edən yazıçı, dramaturq Mirzə İbrahimov Şəki Teatrının fəaliyyətinə tənqidi yanaşaraq demişdir: "Nuxa teatrından məsələnin mahiyyətini yoldaşlar kafi qədər başa düşməmişlər. Məsələn, biz Nuxa teatrından tələb etdikdə onlardan ilk dəfə repertuar üçün 19-20 əsərin adını almışıq. Sonradan 13 əsər oldu. Halbuki, siz bilirsiniz ki, Nuxa teatrının gündə verə biləcəyi 10 premyeradır. Biz bundan 8-ni plana salırıq. Teatrda gözəl surətdə 13 pyesanın göstərilməsi özü onu göstərir ki, teatrın bədii hissələrinə fikir verilmir, direktor bu məsələnin əhəmiyyətini başa düşməyir və kafi qədər onun üzərində işləmir [2, f. 345, siyahı 1, səh 54]. Azərbaycan Respublikası və rayon teatrlarının direktorlarının və incəsənət rəhbərlərinin birlikdə 5-6 mart tarixli iclaslarında Nuxa teatrı kəskin tənqidə məruz qalmışdır. İclasda teatrlarda maliyyə uçotu və maliyyə işinin vəziyyətindən danışan Rzayev çıxışında demişdir: "Teatrlarımızın premyera məsələsinə keçək. 192 premyera üçün plan verilməsi, planın həyata keçirilməsində teatrlar ümumiyyətlə müvəffəq olmuşlar. Ancaq bir neçə teatr bu sahədə çox ağır işləmişdir. Nuxa teatrı birini də verməmişdir. Repertuar planının həyata keçirilməsi ilə ümumi teatrların planının həyata keçirilməsində böyük fərq vardır.

Nuxa Dram Teatrı 33 min tamaşaçı əhatə etməli idi, 34 min tamaşaçı əhatə etmişdir. Mədaxil planını 111% doldurmuşdur"[2, f. 345, siyahı 1, səh 129]. Məruzəçi Rzayev həmçinin teatr direktorlarının da fəaliyyətinə Nuxa Teatrının direktorunun şəxsində tənqidi yanaşaraq onları vəzifə səlahiyyətlərini düzgün icra etməməkdə günahlandıraraq demişdir: "Aktyor yaratmağa bədii rəhbərlər və direktorlar çox fikir verməlidir. Direktorlarımızda belə fikir formalaşıb ki, aktyor məsələsinə bədii rəhbər baxır. Bu cür deyil, direktor teatra birinci məsuldur, bədii rəhbər onun birinci və möhkəm köməkçisidir. Heç vaxt bu məsələni bədii rəhbərlik üzərinə atmaq olmaz. Direktorlar gərək özləri bu işlə məşğul olsunlar"[2, f. 345, siyahı 1, səh 130-131]. Teatrın içindəki nöqsanlar müşavirənin 6 mart 1941-ci il tarixli iclasında da müzakirə obyektinə çevrildi. Çıxış edən Məmmədov Nuxada dram əsərlərinin musiqi tərtibatına münasibət bildirərək demişdir: "Bizim çox rayon teatrımız vardır ki, keyfiyyətsiz əsərlər verirlər. Məsələn, Mən Nuxa rayonunda "Beş manatlıq gəlin" pyesi haqqında danışmaq istəyirəm. Musiqisini Nuxada özlərindən düzəltmişlər. Musiqisini dəyişdirmək keyfiyyətsiz və plansız iş görmək deməkdir. Keyfiyyətsiz əsər brak hesab olunur. Bu barədə Nuxaya teleqramma vurduq ki, daha bu əsəri oynamasınlar. Siz tamaşanı elə verməlisiniz ki, tamaşaçılar bundan razı qalsınlar" [2, f. 345, siyahı 1, səh 256].

1941-ci ilin avqust ayından Şəki Dövlət Dram Teatrına tanınmış aktyor Məmmədkəbir Hacıoğlu direktor təyin edildi. Səhnədə böyük yaradıcılıq yolu keçmiş istedadlı və təcrübəli bir insanın Şəki Teatrına rəhbər təyin edilməsi işdə mühüm dönüş yaratdı. M.Hacıoğlunun səhnə fəaliyyəti 1940-cı ildə dövlət tərəfindən yüksək qiymətləndirilərək Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 1940-cı il 23 aprel tarixli fərmanı ilə ona Azərbaycan SSR əməkdar artisti fəxri adı verilmişdir. Xüsusi teatr təhsili olmasa da, uşaqlıqdan başlayaraq teatr sənətinə böyük rəğbət bəsləmiş, Azərbaycan səhnəsinin qabaqcıl ustalarının yaradıcılığını məhəbbətlə izləmişdir. Məmmədkəbir Hacıoğlunun artistlik sənətinə Sidqi Ruhulla və Abbas Mirzə Şərifzadə kimi ölməz sənətkarların böyük təsiri olmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduğu ilk günlərdən o, burucu fabrikasında fəhlə kimi işləməklə orada dram dərnəyi təşkil edərək tamaşalar verməyə başlamışdır. Mövhumatçı ailə üzvləri onun oyunbazlıq etməsindən xoşlanmayaraq dəfələrlə onu evdən qovduqlarına və hədələdiyinə baxmayaraq o, şərəfli və qəlbən bağlı olduğu sənətdən bir an belə ayrılmamışdır.

Şəki Teatrının inkişaf tarixi ilə bağlı yerli və mərkəzi dövrü mətbuatı izləyərkən bu görkəmli səhnə ustasının ömür və yaradıcılıq yoluna dair yazılmış onlarla yazılara rast gəlmək mümkündür. 1955-ci ilin dekabr ayının 17-də Şəkidə Məmmədkəbir Hacıoğlunun səhnə fəaliyyətinin 35 illik yubileyi ilə bağlı 40-cı illərin sonlarında Şəki teatrına rəhbərlik etmiş M.Cabbarov "35 il səhnədə" başlıqlı məqaləsində yazır: "Dekabrın 17-də axşam rayon mədəniyyət evinin iclas salonu adamlarla dolmuşdu. Onlar buraya Azərbaycan SSR əməkdar artisti M.Hacıoğlu yoldaşın səhnə fəaliyyətinin 35 illiyini keçirmək üçün gəlmişdilər. Yubilyara həsr olunmuş təntənəli gecədə onun adına bir çox yerlərdən təbrik teleqramları alınmışdır. Xüsusilə, bu teleqramlar içərisində Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Mirzə İbrahimov, Azərbaycan SSR Mədəniyyət naziri M.Qurbanov, Azərbaycan Sovet Yazıçıları İttifaqı sədri S.Rəhimov, yazıçı və artıstlərdən S.Rəhman, Ə.Sadıqov, S.Tağızadə yoldaşlardan da teleqramlar vardır. Təntənəli gecədə rəsmi hissədən sonra M.Hacıoğlu yoldaşın iştirakı ilə S.Vurğunun "Vaqif" pyesindən, Ü.Hacıbəyovun "Arşın mal alan", S.Rüstəmin "Durna" musiqili komediyasın-dan səhnəciklər göstərildi və müsamirə oldu" [6]. ..Məmmədkəbir Hacıoğlunun Şəki Dövlət Dram Teatrına rəhbərlik etdiyi illəri keyfiyyət və məzmun baxımından düzgün qiymətləndirən 50-70-ci illər Şəki ədəbi mühitinin görkəmli nümayəndəsi olmuş həkim-yazıçı Lütfəli Həsənovun "Səhnəyə həsr olunmuş həyat" adlı məqaləsindən oxuyuruq: "M.Hacıoğlu bütün ömrü boyu səhnə fəaliyyəti ilə bərabər, böyük təşkilatçılıq işi ilə də məşğul olmuşdur. O, uzun müddət Nuxa Dövlət Dram Teatrının direktoru vəzifəsində çalışmışdır. Onun direktor olduğu müddət teatr səhnəsində yüksək məzmunlu əsərlər tamaşaya qoyulmuş və hər yeni tamaşa tamaşaçılar tərəfindən yüksək hadisə kimi qiymətləndirilmişdir. Hacıoğlunun fəal və səmərəli işi həmin dövrdə aldığı fəxri fərmanlarda, təşəkkürlərdə öz parlaq ifadəsini tapmışdır" [7].

Məmmədkəbir Hacıoğlunun Şəki Dövlət Dram Teatrının direktoru təyin olunduğu il həyatın ən ağır sınaq ili idi. 1941-ci il iyunun 22-də faşist Almaniyası hücum etməmək haqqında Sovet İttifaqı ilə bağladığı müqaviləni xaincəsinə pozaraq SSRİ-yə hücum etdi. Azərbaycan zəhmətkeşləri bütün sovet xalqı ilə birlikdə sosialist vətəninin müdafiəsinə qalxdı. Müharibənin ilk günlərindən minlərlə gənc ərizə yazaraq döyüşən ordu sıralarına könüllü olaraq yazıldı. Məsələn, 1942-ci ilin oktyabr ayının dörd günü ərzində Şəki Hərbi Komissarlığına 100-dən çox gənc ərizə ilə müraciət edərək könüllü surətdə Qızıl Ordu sıralarına daxil olmaq, döyüş cəbhəsinə getmək istədiklərini bildirmişdir. Müharibənin ilk günlərindən aktyorların bir qismi səhnəni döyüş meydanı ilə əvəz etməli oldu. Respublikanın digər teatrları kimi Şəki Dövlət Teatrı da müharibənin

ilk günlərindən öz işini faşizm üzərində qələbəyə həsr etmişdi. 1941-45-ci illər Şəki Dövlət Dram Teatrının tarixinə humanizm və vətənpərvərlik əhvali-ruhiyyəsi ilə zəngin və gərgin yaradıcılıq dövrü kimi daxil olmuşdur. Müharibə Şəki teatrını yeni mövzularla, obrazlarla zənginləşdirdi. Bu illərdə teatr ideya cəhətdən, realizm və müasirlik mövqeyindən daha da yüksəldi. Teatrın direktoru M.Hacıoğlunun yüksək təşkilatçılıq qabiliyyəti nəticəsində teatrın repertuarı vətənpərvərlik və qəhrəmanlıq ruhunu aşılayan əsərlərlə zənginləşdirildi. 1941-42-ci illərdə M.Hacıoğlu tərəfindən verilmiş əmrlər dəftərini vərəqlədikcə bu zənginliyi görməmək mümkün deyil. Həmin illərdə teatrda "Vətən oğlu", "Özgə uşağı", "Aslan yatağı", "Vaqif", "Aşıq Qərib", "5 manatlq gəlin", "Vətən namusu", "Polad Qartal", "Fərhad və Şirin", Xoşbəxtlər", "Səadət", "Əsli və Kərəm", "Qaçaq Nəbi", "Nizami", "Məşədi İbad", 1943-cü ildə "Almaz" (C.Cabbarlı), "Məhəbbət" (M.İbrahimov), "Hücum davam edir" (Sabit Rəhman), 1944-45-ci illərdə "Eşq və intiqam" (S.S.Axundov), "İntizar" (M.Hüseyn və İ.Əfəndiyev) və s. əsərlər hazırlanıb tamaşaya qoyulmuşdur. Həmçinin 40-cı illərdə teatrın repertuarında "Hacı Qara", "Molla İbrahimxəlil Kimyagər" (M.F.Axundov), "Bəxtsiz cavan" (Ə.Haqverdiyev), "1905-ci ildə", "Sevil", "Aydın", "Od gəlini", "Oqtay Eloğlu", "Solğun çiçəklər" (C.Cabbarlı), "Ər və arvad", "O olmasın bu olsun" (Ü.Hacıbəyov), "Evlikən subay" (Zülfüqar Hacıbəyov), "Bahar" (Məhəmmədhüseyn Təhmasib), "Qız qalası" (Rza Şahvələd), "Praqanın şabalıd ağacları altında" (Konstantin Simonov), "Bayram günü" (Səttar Axundov) və s. əsərlər də mühüm yer tutmuşdur.

Rayon teatrlarının bir çoxu C.Cabbarlının əsərlərinin səbəbinə yaranıb meydana çıxmışdı. Bu barədə ən xarakterik misal Nuxa səhnəsidir.

Maraqlı faktdır ki, Azərbaycan teatr tarixində C.Cabbarlının "Solğun çiçəklər" əsəri, ilk dəfə Nuxada tamaşaya qoyulmuşdur. Kollektiv stosionar səhnədə çıxış etməklə bərabər müəssisələrdə, təsərrüfatlarda səyyar tamaşalar göstərir, qonşu rayonlara qastrol səfərlərinə gedirdi. Müharibə illərində kollektiv Azərbaycan Xalq Komissarları yanında İncəsənət İdarəsinin göstərişinə əsasən 1941-42-ci illərdə Zaqatalada, 1942-ci ilin müvafiq vaxtında Vartaşendə, 1943-cü ildə Ağdamda, 1944-cü ildə Ağdaş və Qaxda, 1945-ci ildə Yevlax və Kürdəmir rayonlarında qastrol səfərlərində olmuşdur [1, f. 20, saxlama vahidi 7, siyahı 2].

Teatrın kollektivi müharibə dövrünün tələbləri ilə bağlı Azərbaycan Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsinin 1942-ci il 29 sentyabr tarixli 613 №-li əmrinin ikinci paraqrafından: "Предложить директоры театра М.Кечитову обеспечить во время отписка, систематическое обселутивание концертными бригадаме частей Красной Армии, а госпиталей и колхозов" irəli gələn vəzifələr müharibənin sonlarına kimi əsas fəaliyyət proqramına çevrilmişdir [1, f. 20, saxlama vahidi 7, siyahı 2].

Müharibə illərində gənclərin asudə vaxtının səmərəli təşkili və onların vətənpərvərlik tərbiyəsi ilə bağlı, məktəblilərin qış tətili ilə bağlı 1945-ci ildə "Aslan yatağı" əsərindən 2 pərdənin, "Aydın", və "Toy kimindir?" əsərlərinin tamaşasını keçirmişdir.

Tədqiq etdiyimiz Böyük Vətən müharibəsi illərində teatrın bir çox tamaşaları çatışmazlıq və nöqsanlara baxmayaraq uğurlu aktyor oyunları ilə yadda qalmışdır. Böyükxanım Axundova Həyat ("Həyat") və Ediliya ("Sevil"), Cəlil Bağdadbəyov Hacı Qara ("Hacı Qara") və Məşədi Hüseyn ("Həyat"), Yusif Vəliyev Aydın ("Aydın") və Alxas bəy ("İntizar"), Hökumə Qasımova Gültəkin ("Aydın"), Kamil Qubuşov Polad ("Polad Qartal") və Balaş ("Sevil"), Bilqeyis Ələsgərova Zalxa ("Toy"), Xalidə Məmmədova Gülüş ("Sevil") və Telli ("Arşın mal alan"), Sərxan Mustafayev Bahadur bəy ("1905-ci ildə") və Arçil ("Vətən namusu"), Əliməmməd Novruzov Pardon Qurbənəli ("Həyat") və Vəli ("Arşın mal alan") Məmməd Xalıqov Atakişi ("Sevil") və Əmiraslan bəy Salamov ("1905-ci ildə)", Məmmədkəbir Hacıoğlu Sardion ("Vətən namusu") və Kərəmov ("Toy") kimi tamaşaçıların yaddaşında qalan obrazlar yaratmışdılar.

Nuxa teatrının müharibə illərində tamaşaya hazırladığı Hüseyn Mehdi və İylas Əfəndiyevin birgə yazdıqları "İntizar" pyesi öz müvəffəqiyyəti ilə daha yaddaqalan olmuşdur. Görkəmli ədəbiyyatşünas Məmməd Arif pyesin tamaşası ilə bağlı təəssüratlarını "İntizar" adlı məqaləsində aşağıdakı kimi bildirmişdir: "H.Mehdi və Ə.İlyasın "İntizar" draması aktyor sənəti üçün əlverişli vəsait verir. Burada nisbətən gurultusuz mükalimələr, daxili, psixoloji hərəkətlər, həyatın özü qədər mürəkkəb hisslər vasitəsilə açılan təbii insan səciyyələri vardır. Belə əsərlər səhnə işçilərinə geniş yaradıcılıq imkanı verir, artistlərin aktristlərin əl-qolunu bağlamır. Mən bunu xüsusilə, Nuxa Dövlət Dram Teatrının aktyor heyəti içərisində müşahidə etdim. Teatrın bədii rəhbəri Mikayıl Ağayev yoldaşdan tutmuş dünənki statistlərə qədər hər kəs oyunun bağışladığı təsirlə maraqlanır, tamaşaçının münasibətini öyrənir və eyni zamanda camaatın alqışları axınına düşməməyə çalışır. Bu teatrda üç şey diqqəti cəlb edir: səhnə vəhdəti, oyunun ciddiliyi və dil təmizliyi. Aktyorların oyununa tamaşa edərkən bütün səhnələrin, hətta bütün əsərin vahid bir tam təşkil etdini görürsən. Parçalar, səhnələr, əda və hərəkətlər, mükalimələr arasında bədii bir uyğunluq, bir intizam mövcuddur. Bəzi rayon teatrlarında (hətta yalnız rayon teatrlarında deyil) rast gəldiyimiz "qanuni jarja" burada təsadüf edilmir. Müəllifin mətni, rejissorun göstərişi və surətin daxili mənası aktyorlar üçün möhkəm bir qanundur. Nəhayət səhnə dili. Nuxa teatrında aktyorların olduqca düzgün ədəbi bir dillə danışması, azacıq belə olda şivə və ləhcə qarışıqlığına yol verməməsi teatrın böyük qələbələrindəndir" [5]. Teatrın aktyor qrupunun işinə və repertuarına obyektiv qiymət verən Rza Şahvələd "Nuxa Dövlət Dram Teatrında" adlı məqaləsində yazır: "Azərbaycanın ən qədim şəhərlərindən və mədəni mərkəzlərindən sayılan Nuxa öz yeni sovet ziyalıları və böyüyüb artmaqda olan doğma teatrı ilə fəxr edə bilər. Respublikamızın əməkdar artisti M.Hacıoğlu, Yusif Vəliyev, aktrisalardan Şirinbacı Cəfərova, Hökumə İsmayılova, Bilqeyis Ələsgərova kimi gənc və gözəl səhnə ustaları ilə Nuxa teatrı böyük, mürəkkəb əsərlərin öhdəsindən gəlir. Hacıoğlu oynadığı bütün rollarda istedadlı olduğunu sübut edir. Hacıoğlu ilə yanaşı onun oynadığı rolların səciyyəsinə yaxın aktyorlardan biri də Yusif Vəliyevdir. "Aydın"da Aydın, "İntizar"da Alxas bəy rollarını ifa edən bu gənc aktyorun bütün səhnə müvəffəqiyyəti nəinki onun, bəlkə də rejissor Mikayıl Ağayevin və Nuxa teatrının bütünlükdə müvəffəqiyyəti sayılmalıdır. Yusif Vəliyevin realist planda oynadığı Aydın surəti yüksək romantik səviyyəyə qaldırılıb tamaşaçıya olduqca dərin təsir bağışlayır. "Otello" və "Vaqif" kimi əsərləri tamaşaya qoyan bu teatr "Beş manatlıq gəlin" və "Ürək çalanlar" kimi musiqi əsərləri də oynayır. Nuxa teatrının musiqili əsərlər oynamasına baxmayaraq çalğıçıları yoxdur. Bu hal öz-özlüyündə musiqili əsərlərin nə dərəcədə sönük və başdansovdu verildiyini də sübut edir. Teatrın bəzi aktyorlarında gördüyümüz iki mühüm nöqsan bizi xeyli düşündürür. Bu da ayrı-ayrı aktyorların səhnədə olduqca yersiz

çağırmaları və ya əksinə, xeyli ağlamaları, fəğan və sızıltı qoparmalarıdır. Hər iki cəhət bu teatra kənardan gətirilmiş olsa da, hər halda Nuxa Teatrı və onun yaradıcı heyəti bununla mübarizə aparmalıdır"[9]. Teatrşünas Aslan Kənan Yusif Vəliyevlə bağlı qeydlərində yazır ki, M.Hüseyn və İ.Əfəndiyevin birgə yazdıqları "İntizar" pyesinin tamaşasında yaratdığı Alxas bəy obrazı ölməz sənətkarımız Kazım Ziyanın diqqətini cəlb etmiş və o, Y.Vəliyevin Bakıya – Gənc Tamaşaçılar Teatrına gəlməsinə köməklik göstərmişdir.

Cəfər Cabbarlının dramaturgiyasına münasibət Nuxa Dövlət Dram Teatrının repertuarının aparıcı mövzusu olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, görkəmli dramaturqun "Solğun çiçəklər" pyesi ilk dəfə olaraq 1949-cu ildə Nuxa Dövlət Dram Teatrında oynanılmışdır. Əsərin quruluşçu rejissoru M.Cahangir "Solğun çiçəklər"in təbii, sadə boyalarla tamaşaçılara çatdırılmasına və C.Cabbarlının nifrət etdiyi pulun kapitalizm cəmiyyətində insan taleyinin məzarçısı olmasını sübut etməyə can atmış və buna nail olmuşdur. Bəs necə olmuşdur ki, "Solğun çiçəklər" ilk dəfə Nuxada hazırlanmışdır. Tamaşanın quruluşçu rejissoru Cahangir Aslan oğlu bunu zamanın tələbi ilə əlaqələndirib demişdir: " 1949-cu illərdə gənclərimizin tərbiyəsinin düzgün formalaşması, pulun insan üzərindənki hökmranlığını əyani surətdə göstərmək üçün məhz Cəfər Cabbarlının "Solğun çiçəklər"ini tamaşaya hazırladıq. "Solğun çiçəklər" 20 gün səhnədən düşmədi".

Əsərin qəhrəmanı Sara rolunu H.Qasımova (İsmayılova) ifa edib. Onun aktyorluq məharəti haqqındakı "Nuxa fəhləsi" qəzetində xüsusi məqalə dərc edilib. Oradan oxuyuruq: "... Əsərin qəhrəmanı Sara surətini aktrisa H.İsmayılova ifa edir. Bu surətin mehribançılığı, etiraz etməyi bacara bilməməsi, təzyiqlərin, təcavüzlərin və məhrumiyyətlərin hədəfi olması aktrisanın yaradıcılığında özünü parlaq surətdə göstərir". Rolun ifaçıçı Qasımova Respublika Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənə arxivinin elmi işçisi ilə müsahibəsində demişdir: "Solğun çiçəklər"in bütün tamaşaları həyəcanla, böyük coşğunluqla keçdi. Əsərin quruluşçu rejissoru Cahangir müəllim hətta aktyorların geyimlərini belə rənglədib, saranın uğursuz məhəbbətinin yadigarı olan solğun çiçəklərin rənginə uyğun tikdirmişdir. "Solğun çiçəklər" uzun müddət səhnədən düşmədi və hər dəfə də rəğbətlə qarşılandı. Saranı mən bütün varlığımla sevərək oynayırdım" [10].

Aktyor Ramiz Sadıqov Saranın sadiq nökəri Əbdül əminin daxili aləmini, yoxsul və xəstə Saraya yeganə məhrəm olub onu ovundurmağa çalışmasını tamaşaçılar qarşısında nümayiş etdirir. Bəhram rolunu əsərdə artist T.Qasımov ifa edir. T.Qasımov–Bəhram iradəsiz, etibarsız, mal və pul düşkünü kimi diqqəti cəlb edir.

Gülnisənin zülmkar cani surəti aktrisa B.Ələsgərova və S.İsmayılovada özünə möhkəm mövqe tutmuşdur. Pəri rolunu ifa edən B.Əliyevanın rolu nöqsanlı olmuşdur. O, Bəhramı Saradan ayırmaq məqsədini tamaşaçılara yaxşı çatdıra bilməmişdir.

40-cı illərin ikinci yarısında Şəki Dövlət Dram Teatrını kütlələrə sevdirən və teatra axınını təmin edən səbəblərdən biri teatrın nəzdində xalq çalğı alətləri orkestrinin fəaliyyəti olmuşdur. Orkestrin çalğıçıları və solistləri nəinki Şəkidə, həmçinin respublikada tanınan tarzanlar və müğənnilər olmuşdur. Şəkinin məşhur tarzanı olmuş Fərrux Abdulrəhimov teatrın məşhur solistləri Əlövsət Sadıqovu və Yunis Məmmədovu aşağıdakı kimi xatırlamışdır: "Respublikamızın xalq artisti, görkəmli opera artisti və xanəndə Əlövsət Sadıqovu 1946-cı ildən tanımışam. Həmin illərdə mən Sabir adına Şəki Dövlət Dram Tearının xalq çalğı alətləri orkestrində işləyirdim. Teatrımızın repertuarında opera əsərləri xüsusi yer tuturdu. Odur ki, mən Ü.Hacıbəyovun "Leyli və Məcnun" əsərini əzbər bilirdim. Əlövsət Sadıqov həmin illərdə müntəzəm olaraq Şəki teatrı ilə sıx əlaqə saxlayırdı. Xüsusilə, teatrımızda Məcnun rolunun əvəzsiz ifaçısı Yunis Məmmədovla dostluq edirdi. Yunis dayı əslən Ağdamlı olduğu üçün Şəkidə ona Qarabağlı Yunis deyirdilər" [8].

1948-ci ilin avqust ayında Nuxa Dövlət Dram Teatrının direktoru vəzifəsinə Məmmədiyyə Cabbarov təyin olunur. Teatrın yeni repertuarına "Məlikməmməd", "Dostlar" (Səttar Axundov), "Bayram günü" (S.Axundov), "Bahar suları" İ.Əfəndiyev), "Gözün aydın", "Kür sahilində", "Qırmızı qalstuk" və s. kimi əsərlər daxil edilir. Qısa fasilələrlə direktor dəyişmələri teatrın fəaliyyətindəki durğunluqla bağlı idi.

1948-ci ilin yanvar ayının 1-nə olan məlumata görə teatrda tarif cədvəli üzrə 65 nəfər çalışmış, bunlardan 7 nəfərinin ali (Mikayıl Ağayev, Zahid Məlikov, Zahid Zeynallı, Ağası Məşədibəyov, Hacıağa Quliyev, Nina Boqamolova, Rəfael Kostanyan), 22 nəfərinin orta, 36 nəfərinin isə müxtəlif sinifləri bitirməklə mükəmməl təhsili olmamışdır [2, f, 345, siy. 2a, iş 74, səh 7].

1949-cu ildə teatr işıqlarını söndürmüş, 1950-ci illərin ortalarınadək fəaliyyətini müvəqqəti olaraq dayandırmışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikası Ədəbiyyat və İncəsənət Arxivi: f. 20, siy. 2, saxlama vahidi. 18, v 29.
2. Azərbaycan Respublikası Ədəbiyyat və İncəsənət Arxivi: f. 345, siy. 1, iş- 168, 252.
3. Babayeva S. Əyalət çərçivəsini sındıran Şəki Dövlət Dram Teatrı. "Üç nöqtə" qəz., Bakı, 2004, 11 noyabr.
4.Bizi də qınamayın. "Yeni Azərbaycan" qəz., Bakı, 2001, 27 yanvar.
5. Məmməd Arif. "İntizar". "Ədəbiyyat və incəsənət", qəz., Bakı.
6.Cabbarov M. 35 il səhnədə. "Nuxa fəhləsi" qəz., Nuxa, 1955, 21 dekabr.
7.Həsənov L. Səhnəyə həsr olunmuş həyat. "Şəki fəhləsi" qəz., Şəki, 1964, 1 avqust.
8.Rəşidzadə L. Uğurların sədası. "Sovet kəndi" qəz., 1983, 16 avqust.
9.Şahvələd Rza. Nuxa Dövlət Dram Teatrında. "Kommunist" qəz., 1946, 17 iyul.
10.Teymurov M. "Solğun çiçəklər"in ilk tamaşası//Mədəni-maarif işi, 1973,№3, s 9-

Açar sözlər: müharibə, rejissor, aktyor, səhnə həyatı, repertuar, mövzu, pyes, müharibə dövrü, teatr kollektivi, tamaşa, məqalə
Key words: war, director, actor, stage life, repertoire, theme, play, war era, theater collective, spectacle, article
Ключевые слова: война, режиссер, актер, сценическая жизнь, репертуар, тема, игра, эпоха войны, коллектив театра, спектакль, статья

Шекинский Театр в годы Великой Отечественной войны
Резюме

В статье рассматривается роль театра  в культурной жизни Шеки в 1940-1948 годах. В изученный период репертуар театра исследуется как ключевой объект с точки зрения его соответствия требованиям военного времени. Исследователь останавливается на упадке и прогрессе в развитии театра во время войны в Шеки на основе архивных документов. В процессе анализа наряду с интерпретацией объекта некоторые театральные практикующие и зрители также широко используются для показателей эффективности театра.
Исследователь подталкивает свои аналитические способности, придавая важную роль сценическим выступлениям известных режиссеров и актеров, таких как Мамедкабир Гаджиоглу, Юсиф Велиев, Бильгейс Алескерова и другие, которые оказали специальные услуги по развитию театра во время войны.

Sheki Theater during the Great Patriotic War

Summary

The article examines the role played by Shaki theater in Shaki's cultural life in 1940-1948. The author draws the attention of the theater to interesting facts.In the studied period, the repertoire of the theater is investigated as a key object in terms of its relevance to the war-time requirements. The researcher dwells on the decline and progress in the development of theater during the war in Sheki on the basis of archival documents. In the process of analysis, along with the interpretation of the object, some theater practitioners and viewers are also widely used for the theater's performance indicators. The researcher pushes his analytical skills by giving important role to the stage performances of well-known directors and actors such as Mammadkabir Haciyoglu, Yusif Veliyev, Bilgeis Aleskerova and others, who had special services in the development of theater during the war.

Rəyçi: prof.Babayev Baba